

**SİYAVUŞ NOVRUZOV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## HEYDƏR ƏLİYEV ŞƏRQ-QƏRB DƏHLİZİNİN YARADICISIDIR

Artıq bu gün hamıya məlumdur ki, Şərq-Qərb dəhlizinin yaradılması yolunda Azərbaycan Respublikasının apardığı siyasət öz uğurlu nəticələrini verməkdədir. Şərq-Qərb dəhlizinin reallaşdırılması proqramı çərçivəsində işlərin davam etdirilməsinin yaxın illərdə Azərbaycanı böyük tranzit ölkəsinə çevirəcəyinə bu gün heç kim şübhə etmir. Şərq-Qərb dəhlizinin yaradılması ideyası tarixi zərurətdən doğmuşdur. Belə ki, Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra bir sıra çətinliklərlə qarşılaşmalı oldu. Şimal dəmir yolunun uzun müddətə bağlanması (burada obyektiv deyil, subyektiv amillər əsas rol oynayırdı), cənub qonşumuz İran İslam Respublikasının bu ölkənin vasitəsilə Azərbaycana gələn malların həcminə, növünə və çeşidinə yasaq qoyması, kömrük rüsumlarını ağlagəlməz şəkildə yüksəltməsi yalnız bir məqsədə – öz kövrək addımlarını yenicə atmağa başlayan Azərbaycanı diz çökdürməyə, həm Rusiyadan, həm də İrandan asılı olan ələbaxım bir dövlətə çevirməyə xidmət edirdi. Həmin vaxtlar Azərbaycan dilemma qarşısında qalmışdı: ya Rusiya və İranın mənafelərinə uyğun gələn xarici siyasət yeritməli, bu dövlətlərin de-fakto koloniyasına çevrilməli, ya da ölkə iqtisadiyyatını ayağa qaldırmaq üçün müxtəlif yollar axtarılmalı idi. Azərbaycan bu yollardan ikincisini seçdi və tarix sübut etdi ki, Azərbaycan öz seçimində yanılmayıb.

1993-cü ildən başlayaraq, Azərbaycanın dövlət müstəqilliyini qoruyub möhkəmləndirmək və Azərbaycanı iqtisadi baxımdan güclü bir ölkəyə çevirmək Azərbaycanın xarici siyasətinin prioritetini təşkil edir və ən əsas fəaliyyət sahəsi olur. Şübhəsiz ki, Şərq-Qərb dəhlizinin reallaşdırılması ilə bağlı Azərbaycanın gördüyü işlər (Böyük İpək yolunun bərpası layihəsi, «Əsrin kontraktı» da daxil olmaqla, xarici neft şirkətləri ilə bağlanmış iyirmidən artıq kontrakt, Bakı-Supsa neft kəmərinin işə düşməsi, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri ideyalarının gündəmə gətirilməsi və s.) XX əsr Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq.

Şərq-Qərb dəhlizinin müasir vəziyyəti və gələcəkdəki perspektivi, bir tranzit ölkəsi kimi Azərbaycanın əldə etdiyi və gələcəkdə əldə edəcəyi böyük mənfəətlər, eləcə də Şərq-Qərb dəhlizi üzərində çox önəmli geosiyasi mövqeyə malik olması ilə bağlı bu tranzit yolundan istifadə edəcək dövlətlərə Azərbaycanın təsirgöstərmə qabiliyyətinin artması, Şərq-Qərb dəhlizinin türk dünyasını bir-bi-

rinə yaxınlaşdırmaqdakı rolu və bu dəhlizlə bağlı digər heç də az əhəmiyyətli olmayan məsələlər ayrıca yazıların, məqalələrin, kitabların mövzusudur. Biz bu yazımızda Şərq-Qərb dəhlizi ideyasının reallaşmasında tarixi şəxsiyyətin rolu məsələsinə toxunacaq, ayrı-ayrı məqamları işıqlandırmağa çalışacağıq.

Siyasi kluarlarda tez-tez rast gəlinən belə bir fikir var: «Azərbaycan geosiyasi baxımdan əlverişli ölkədir». Biz bu fikirdəyik ki, bu mülahizəni mütləqləşdirmək lazım deyil. Əslində bütün ölkələr bir-biri ilə qonşu, Yer isə kürəşəkilli olduğundan geosiyasi baxımdan əlverişsiz ölkə yoxdur. Başqa sözlə desək, ölkələr geosiyasi baxımdan əlverişli və əlverişsiz yaranmırlar. Yəni geosiyasi baxımdan əlverişsiz ölkəni də əlverişli mövqeyə çıxarmaq olar. Bu isə yalnız düzgün və balanslaşdırılmış xarici siyasət aparmaq nəticəsində mümkündür. Əgər bu gün xarici dövlətlər Azərbaycanı geosiyasi baxımdan əlverişli ölkə hesab edirlərsə, bunu Azərbaycanın 1993-cü ildən sonra apardığı xarici siyasət kursunun nəticəsi və uğuru hesab etmək lazımdır. Ölkəni əlverişli, yaxud əlverişsiz şəraitə dövlətin başında duran şəxslər, dövlətin daxili və xarici siyasətini müəyyənləşdirən və ona təsir göstərmək iqtidarında olan şəxslər salır. Başqa sözlə desək, disbalans xarici siyasət kursu yeritməklə, ölkəni geosiyasi baxımdan əlverişsiz vəziyyətə salmaq olar. Keçmiş Yuqoslaviya (indiki Serbiya-Çernoqoriya) və İraqın timsalında biz bunun şahidi oluruq. Başqa bir nümunə. Əgər Ermənistana vaxtaşırı İran və Rusiyanın «tonuslaşdırıcı iynələri» vurulmasa idi, Ermənistan çoxdan ölü vəziyyətinə düşər, xarabazarlığa çevrilərdi. Dövlət və onun rəhbəri öz syiasəti ilə ölkəni elə bir vəziyyətə sala bilər ki, onu nəinki «geosiyasi baxımdan əlverişsiz ölkə» adlandırarlar, hətta, «banan respublikası» da deyərlər. Əgər bu gün dünya siyasətində, eləcə də dünyanın məşhur siyasət xadimlərinin nəzərində Azərbaycan geosiyasi baxımdan əlverişli ölkə statusu qazanıbsa, bu, Azərbaycanın daxili və xarici siyasət kursunun, Heydər Əliyev siyasətinin nəticəsi və uğuru sayılmalıdır.

Mərkəzi və Orta Asiyanı, Uzaq Şərqi Qərblə sıx şəkildə bağlaya bilən Şərq-Qərb dəhlizinin yaradılması barədə söhbətlər son dörd-beş ildə siyasi dairələrdə danışıq obyektinə çevrilsə də, əslində bu ideyanın yaranma tarixi bir az da əvvəldir. Başqa sözlə desək, Şərq-Qərb dəhlizinin yaradılması ideyası Azərbaycan öz müstəqilliyini qazandığı gündən yaranıb və öz aktuallığını heç bir vaxt itirməyib. Bu ideyanın müəllifi Şərq-Qərb dəhlizi yaradılması siyasətinin baş memarı Heydər Əliyevdir. Şərq-Qərb dəhlizi ideyasının yarandığı yer isə Naxçıvan Muxtar Respublikasıdır. Naxçıvanla Türkiyə arasında «Ümid körpüsü» adlandırılan körpü açıldığı gündən (həmin dövrdə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işləyirdi). Heydər Əliyevin Şərq-Qərb dəhlizi ideyası reallaşmağa başladı. Bu körpünün salınması o qədər də böyük iş olmasa da, simvolik məna daşıyırdı və gələcəkdə bu istiqamətdə görüləcək işlərin müjdəçisi idi.

Lakin Heydər Əliyevin bir müddət (1991-1993) Azərbaycanın daxili və xarici siyasətinə təsir göstərmək imkanlarının məhdudlaşdırılması Şərq-Qərb dəhlizinin yaradılması ideyasının reallaşmasını iki il geriyə atdı. Nə Ayaz Mütəllibov, nə də Əbülfəz Elçibəy hökuməti belə nəhəng işin öhdəsindən gəlmək iqtidarında deyildi. Şərq-Qərb dəhlizinin yaradılması kimi nəhəng layihəni həyata keçirmək üçün Azərbaycana diletant siyasətçilər deyil, «siyasət qazanı»nda bişmiş, usta siyasətçi lazım idi. 1993-cü ilin iyununda siyasi, iqtisadi, hərbi böhran özünün son nöqtəsinə çatdı və ölkə addım-addım vətəndaş müharibəsinə yuvarlandı. Ölkəni düşdüyü bu çətin vəziyyətdən xilas etmək, vətəndaş qarşıdurmasının vətəndaş müharibəsinə çevrilməsinin qarşısını almaq üçün xalqın təkidli tələbi ilə Heydər Əliyev Bakıya dəvət olundu. Məhz 1993-cü ilin iyun ayında Heydər Əliyevin Bakıya gəlməsiylə Azərbaycan öz usta, mahir siyasətçisini tapdı.



1993-cü ildə Azərbaycan bir sıra çətin problemlər qarşısında qalmışdı. Həmin problemləri həll etmədən Şərq-Qərb dəhlizi ideyasını gündəmə gətirmək və onun reallaşmasına çalışmaq mümkün deyildi. Burada Azərbaycanın müstəqilliyini, suverenliyini istəməyən daxili və xarici qüvvələrin gördüyü işləri xatırlatmaq kifayətdir. Bu dövrdə Azərbaycan iqtisadi böhran içində çabalayırdı. Müstəqilliyə yenicə qovuşmuş, öz kövrək addımlarını yenicə atmağa başlayan Azərbaycan şimaldan Rusiya, cənubdan isə İran tərəfindən iqtisadi blokadaya alınmışdı. Bu isə öz növbəsində Azərbaycanın onsuz da pis vəziyyətdə olan iqtisadi durumunu acınacaqlı vəziyyətə salmışdı. Yeni müstəqil dövlətlərlə, o cümlədən təzəcə müstəqillik əldə etmiş türk respublikaları ilə (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan) hətta diplomatik səviyyədə ılıq münasibətlərin olmaması vəziyyəti daha da gərginləşdirirdi. Yuxarıda qeyd etdiyimiz kimi, Rusiya və İranın məqsədi Azərbaycanı diz çökdürmək, onlardan asılı oyuncaq dövlətə çevirmək idi. Şimal dəmir yolunun bağlanması və digər kommunikasiya vasitələrinin kəsilməsi, İranın Ermənistana kömək edərək, Azərbaycana gələn malların növünə və çeşidinə embarqo qoyması məhz bu məqsədə xidmət edirdi. İnflyasiya tüğyan edirdi. Azərbaycanın mlli pul vahidi manat ilbəil, aybaay deyil, saatbasaat öz qiymətini itirir, lazımsız kağıza çevrilirdi.

Nizami ordusu olmayan Azərbaycan torpaqlarını itirirdi ki, bunun da nəticəsində böyük qaçqınlar ordusu əmələ gəlirdi. Bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün statusu ilə Azərbaycanın digər yerlərinə, xüsusilə də, paytaxt Bakıya üz tutmuşdu. Qanunsuz silahlı birləşmələr xalqın deyil, ayrı-ayrı adamların şəxsi mənafeyinə xidmət edirdi. Vətəndaş qarşıdurması və dövlətə itaətsizlik halları yüksələn xətlə inkişaf edirdi.Bir sözlə, Azərbaycanın o vaxtkı problemlərini saymaqla qurtarmaz. Bu dövrdə Şərq-Qərb dəhlizi ideyasını gündəmə gətirmək utopiya təsiri bağışlaya bilərdi. Əlbəttə, nəzərə almaq lazımdır ki, Şərq-Qərb dəhlizinin yaradılması məqsəd idi və bu yolla siyasi müstəqilliyini elan etmiş Azərbaycanın iqtisadi müstəqilliyini təmin etmək olardı. Lakin məsələnin gündəliyə çıxarılması zaman tələb edirdi. Öz xarakteri və şəxsi keyfiyyətləri ilə Heydər Əliyev romantik deyil, praqmatik siyasətçidir. Bu məsələdə də o, özünün praqmatik siyasətçi olduğunu göstərdi.

Böyük türk hökmdarı Sultan Mehmet Fateh Konstantinopolu tutduqdan sonra demişdi: «Əgər saqqalımdakı tüklərdən biri beynimdən keçənləri bilsəydi, mən onu dərhal qoparıb atardım». Şərq-Qərb dəhlizinin yaradılması çox nəhəng bir

iş olduğu üçün onu bir fərmanla, bir göstərişlə həyata keçirmək mümkün deyildi. Bu problemin həlli addım-addım olmalı idi. İkinci bir tərəfdən, bu problemin həllinə girişən şəxsdən zərgər dəqiqliyi tələb olunurdu. Heydər Əliyev problemin həllinə məhz bu üsulla girişdi. O, yaxşı başa düşürdü ki, Şərq-Qərb dəhlizi idyeasını reallaşdırmaq üçün ölkədaxili problemləri həll etmək, dövlətin daxili və xarici siyasətini bir-biri ilə uzlaşdırmaq tələb olunur. Bunlar isə böyük zəhmət, işgüzarlıq, bacarıq və siyasi iradə tələb edirdi.

Şərq-Qərb dəhlizinin yaradılması istiqamətində atılan ilk addımlardan biri Azərbaycanın xarici siyasət kursundakı disbalansın aradan qaldırılması oldu. Həm Rusiya, həm də İranla olan münasibətlər müəyyən qədər yumşaldıldı. Yeni müstəqillik əldə etmiş türk dövlətləri ilə ılıq münasibətlər yaradıldı. Azərbaycanın xarici siyasət kursu Qərbə doğru istiqamətləndi, Amerika və Avropanın bölgədəki maraqları ilə uzlaşdırıldı.

İstər Mərkəzi və Orta Asiyadakı türk dövlətləri, istərsə də Qərbin iqtisadi baxımdan inkişaf etmiş dövlətləri ilə sıx əməkdaşlığın yaradılmasına səy göstərilməsi əslində Şərq-Qərb dəhlizinin yaradılması ideyasına xidmət edirdi. Azərbaycanın MDB-yə daxil olmasına da bu siyasətin tərkib hissəsi kimi baxmaq olar. MDB-yə daxil olmaqla, Azərbaycan öz sözünü deməyə tribuna tapır və MDB-yə daxil olan digər dövlətlərlə daha sıx əməkdaşlıq etmək imkanı əldə edirdi. Azərbaycan MDB-yə daxil olduqdan sonra GUAM birliyinin (Özbəkistan bu birliyə daxil olduqdan sonra GUÖAM birliyi) yaradılması Heydər Əliyevin bu siyasətinin uğurunu aydın şəkildə göstərir. Nəzərə almaq lazımdır ki, Avropa və Orta Asiya olmadan Şərq-Qərb dəhlizi layihəsinin reallaşmasından danışmaq mümkün deyildi.

Hamıya bəllidir ki, 1993-cü ildə Azərbaycanın nizami ordusu yox idi. Nizami ordu əvəzinə ayrı-ayrı şəxslərin mənafeyinə xidmət edən, onların şəxsi ambisiyalarını həyata keçirmək üçün alət olan «könüllü» batalyonlar fəaliyyət göstərirdi. Heydər Əliyev ayrı-ayrı şəxslərin mənafeyinə xidmət edən «könüllü» batalyonları ləğv etdi və nizami ordu quruculuğuna başladı. Bunun vasitəsilə H.Əliyev ayrı-ayrı «silahlı» şəxslərin prezidentə təsir göstərmək imkanının heçə endirdi. İkinci bir tərəfdən, nizami ordunun yaradılması Heydər Əliyevin şəxsi nüfuzu hesabına yaranmış kövrək daxili sabitliyi möhkəmləndirəcək və bu sabitliyin qarantına çevriləcəkdi. Beləliklə, Şərq-Qərb dəhlizi ideyasının həyata keçirilməsi istiqamətində daha bir addım atılmış oldu.

Azərbaycanın xalqının israrlı təkidi ilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi ölkədaxili vəziyyəti kökündən dəyişdirdi, ölkədəki vətəndaş qarşıdurmasının vətəndaş müharibəsinə çevrilməsinin qarşısını aldı. Bundan əlavə, Heydər Əliyev ölkədə baş alıb gedən separatçılığa, Azərbaycanı parçalamaq üçün dişlərini qıcamış qüvvələrə ağır zərbə vurdu. Məhz Heydər Əliyevin Bakıya gəlməsindən sonra «Sadval» təşkilatı Azərbaycanın şimal bölgələrində, xüsusilə də, Qusarda apardığı pozuculuq işlərinə son qoymalı oldu, bəzi xarici qüvvələrin «xeyir-duası» ilə Ə.Hümbətovun Azərbaycanın cənub bölgələrində «yaratdığı» «Talış-Muğan Respublikası» iflasa uğradı.



Respublika daxilində vəziyyətin nisbətən sabitləşməsi xarici dövlətlərin Azərbaycana marağının artmasına səbəb oldu. Heydər Əliyevin apardığı daxili siyasət də Şərq-Qərb dəhlizinin yaradılmasının tərkib hissəsi idi və bu layihənin reallaşmasına xidmət edirdi. 1994-cü ildə dünya politoloqlarının «Əsrin müqaviləsi» adlandırdığı neft müqaviləsinin bağlanması Şərq-Qərb dəhlizinin reallaşması istiqamətində atılan ən böyük addım oldu. Bu müqavilə Azərbaycan Respublikasının sözün həqiqi mənasında müstəqil dövlət olduğunu və müstəqil xarici siyasət yetirdiyini aydın şəkildə göstərdi. Heydər Əliyevin neft siyasətini onun Şərq-Qərb dəhlizi siyasətindən ayırmaq, təcrid etmək olmaz. Çünki bu mahir siyasətçinin neft siyasəti ilə Şərq-Qərb dəhlizi siyasəti bir-birini tamamlayır, onlar bir-birinin tərkib hissəsinə çevrilir.

Məlumdur ki, indiyə qədər xarici neft şirkətləri ilə 20-dən artıq müqavilə imzalanmışdır. Bağlanmış neft müqavilələri barədə, bu müqavilələrin Azərbaycana gətirəcəyi mənfəət barədə çox yazılıb, siyasi dairələrdə çox söhbətlər edilib. Bu, bir gerçəklikdir. Bununla yanaşı məsələnin digər tərəfini də xüsusi qeyd etmək lazımdır. Belə ki, Şərq-Qərb dəhlizi tam reallaşdığı vaxt Azərbaycanın bu tranzit yoldan əldə edəcəyi qazanc neftdən götürəcəyi mənfəətdən qat-qat çox olacaq. İkinci bir tərəfdən, Azərbaycanın nefti qurtara bilər, amma Azərbaycanın tranzit ölkə olması daimidir. Bu dediklərimiz bir daha göstərir ki, xarici şirkətlərlə neft müqavilələrinin bağlanması son məqsəd deyil, məqsədə çatmaq üçün vasitə statusundadır. Məqsəd isə Şərq-Qərb dəhlizinin tam gücü ilə işə düşməsidir.

1994-cü ildə «Əsrin müqaviləsi» imzalandıqdan sonra daxili və xarici düşmənlər necə bir incə siyasət aparıldığını hiss etməyə, dərk etməyə başladılar və Heydər Əliyevin qısa bir zaman kəsiyində əldə etdiyi uğurları heçə endirmək üçün müxtəlif pozuculuq tədbirləri planlaşdırdılar. 1994-1995-ci illərdə dövlət çevrilişinə cəhdlər göstərilməsi, prezidentin həyatına sui-qəsdlər hazırlanması, Ermənistanın müxtəlif dövlətlər tərəfindən silahlandırılması, Şərq-Qərb dəhlizi üzərində yerləşən Gürcüstana təyziqlər göstərilməsi, Xəzər dənizinin hüquqi statusu ilə bağlı «nala-mıxa döymə» və bir sıra digər hadisələr məhz bunu göstərirdi. Heydər Əliyev dövlət çevrilişlərinin qarşısını aldı, ölkə daxilindəki cinayətkar silahlı birləşmələri ləğv etdi, əhali arasındakı silahları topladı. Bütün bunlar Şərq-Qərb dəhlizinin reallaşması istiqamətində atılmış nəhəng addımlar idi.

«Əsrin müqaviləsi» Azərbaycanın təkcə neft təsərrüfatına deyil, eləcə də neftlə bağlı infrastrukturların yaranmasına, Azərbaycanda sənayenin və kənd təsərrüfatının digər sahələrinə güclü investisiya axını yaratdı. Həmin dövrdə investisiya axınının qarşısını ala biləcək bir maneə qalmışdı. Bu, Azərbaycanın Ermənistanla müharibə vəziyyətində olması idi. Qətiyyətlə demək olar ki, Azərbaycan-Ermənistan cəbhəsində atəşkəsə nail olunması Şərq-Qərb dəhlizinin yaradılması istiqamətində atılmış mühüm addımlardan biridir. Bir faktı qeyd etmək istəyirik ki, Azərbaycan adambaşına qoyulan investisiyanın həcminə görə MDB ölkələri içərisində birinci yeri tutur. Atəşkəsə nail olunmasaydı, Azərbaycana investisiya axınından da danışmaq mümkün deyildi.

Bağlanmış neft kontraktları üzrə neft istehsal olunduqdan sonra neftin ixracı üçün kəmərlər məsələsi gündəliyə gəldi. Şimal boru kəməri fəaliyyətdə idi. Kəmərin Rusiya ərazisindən keçməsi Azərbaycanı Rusiyadan asılı hala salırdı. Məhz bu zərurətdən Bakı-Supsa neft kəmərinə ehtiyac yarandı və 1999-cu ildə həmin kəmərin açılışı oldu. Heydər Əliyev əsas ixrac boru kəmərinin Rusiya və İrandan deyil, Gürcüstan vasitəsilə Türkiyədən keçməsi üzərində israr edirdi ki, bu məsələ də artıq öz həllini tapdı. 2005-ci ildə Azərbaycan nefti ilə doldurulmuş tankerlər Ceyhan limanından dünyanın hər tərəfinə istiqamət götürəcək.

Bəzi siyasətçilər (buraya həm sağ, həm də sol təmayüllü partiyaların rəhbərləri də daxildir) və iqtisadçılar əsas ixrac boru kəmərinin İrandan keçməsini iqtisadi baxımdan sərfəli hesab edirdilər. Lakin bu zaman onlar iki məqama diqqət yetirmirdilər. Heydər Əliyev isə öz siyasəti ilə aksenti məhz həmin məqamlara vururdu. Birincisi, İran və Rusiya böyük neft ölkələri olub, neft ixrac etməklə məşğuldur. Neft kəməri onların ərazisindən keçərsə, bu kəmərin bağlanmaq ehtimalı daha yüksəkdir. Neft kəməri elə bir ölkədən keçməlidir ki, həmin ölkə neft ixrac etməsin, əksinə idxal etsin. Belə olduqda neft kəməri keçən ölkələr Azərbaycandan asılı vəziyyətə düşürlər. İkincisi, neft kəməri Şərq-Qərb dəhlizinin tərkib hissəsi olduğundan kəməri dəhlizdən kənara çıxarmaq olmaz. Əgər Azərbaycan əsas ixrac neft kəmərini Şərq-Qərb dəhlizindən kənara çıxarardısa, bu Azərbaycanın xarici siyasətinin məğlubiyyəti sayıla bilərdi. Azərbaycan əsas ixrac boru kəmərinin tikintisində müəyyən qədər xərcə düşsə də, gələcəkdə Şərq-Qərb dəhlizindən qazanacağı mənfəət bu xərci kompensasiya edə bilər. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də bu dəhlizdən keçməsi, Yunanıstan, İtaliya kimi ölkələrin bu layihədə maraqlı olmaları H.Əliyevin seçdiyi marşrutun hansı dərəcədə əhəmiyyətli olduğunu bir daha göstərir. Təkcə Azərbaycanın deyil, eləcə də bütün Xəzər hövzəsinin neft və qaz ehtiyatlarının Azərbaycan vasitəsilə ixrac olunması Heydər Əliyevin Şərq-Qərb dəhlizi siyasətinin tərkib hissəsidir. Artıq Qazaxıstan öz neftini bu marşrutla ixrac etmək fikrini bəyan edib. Şərq-Qərb dəhlizi tam reallaşdığı vaxt Türkmənistanın da bu dəhlizdən istifadə edəcəyi qaçılmazdır.

Heydər Əliyevin Şərq-Qərb dəhlizi siyasətinin bütün detallarını bir məqalə çərçivəsində açmaq və izah etmək mümkün deyüil. Bu barədə xüsusi kitablar yazmaq olar. Burada bir məqamı da vurğulamaq istəyirik. Belə ki, Heydər Əliyevin Şərq-Qərb dəhlizi siyasəti inkişafdadır və onun əhatə dairəsi getdikcə böyüyür.

2000-ci ildə Bakıda Şərq-Qərb dəhlizinin, xüsusilə də, Böyük İpək yolunun bərpası ilə bağlı yüksək səviyyədi toplantı keçirildi. Həmin toplantı Şərq-Qərb dəhlizinin yaradılmasının necə böyük bir hadisə olduğunu bir daha göstərdi. Bu proqramda iştirak etmək istəyən dövlətlərin təkcə adları buna sübutdur. Perspektivdə Yaponiyadan başlamış bütün Aralıq dənizi hövzəsi ölkələrinin qatılacağı böyük bir qurum görünməkdədir. Bu, on illik ağır zəhmətin və siyasi uzaqgörənliyin bariz nümunəsidir.